YENİ TƏFƏKKÜR Yüksəlişə doğru yol!

# Akademik Yusif Məmmədəliyevin 120 illik yubileyinə həsr olunmuş videoçarxlar hazırlandı

*Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanası böyük kimyaçı-alim, akademik Yusif Məmmədəliyevin 120 illik yubileyi ilə əlaqədar "Elmə həsr olunmuş ömür" və "Tarixə yazılan ömür" adlı silsilə videoçarxlar hazırladı.*

Videoçarxlarda Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın dünyaşöhrətli kimyaçı-alim Yusif Məmmədəliyev haqqında sözləri verilib.

Ümummilli Lider Heydər Əliyev, görkəmli kimyaçı-alim, akademik Yusif Məmmədəliyevin 90 illik yubileyində iştirak etmiş və nitq söyləmişdir. Ulu Öndər alimin heykəlinin açılış mərasimində iştirak etməklə onun elmi xidmətlərini daim yüksək qiymətləndirmişdir. O, Respublika Sarayında (hazırda Heydər Əliyev Sarayı) çıxışında qeyd etmişdir: "Akademik Yusif Məmmədəliyevin elmi axtarışları böyük ixtiralara, yeni elmi konsepsiyaların, əsərlərin yaranmasına gətirib çıxarmışdır. Onun ixtiraları, elmi tapıntıları, fikirləri Azərbaycanın neft kimyası sənayesində böyük inqilab yaratmışdır. Azərbaycan elminin ən yüksək zirvəsində duran bir alim kimi, şəxs kimi Yusif Məmmədəliyev respublika elminin bütün sahələrinin inkişaf etdirilməsində xidmətlər göstərmişdir. Onun bu xidmətləri unudulmur və bu gün də, gələcəkdə də yad ediləcəkdir".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev akademik Yusif Məmmədəliyevin 28 fevral 2005-ci il tarixində "Yusif Məmmədəliyevin 100 illik yubileyi haqqında" və 5 iyul 2025-ci il tarixində "Akademik Yusif Məmmədəliyevin 120 illiyinin qeyd edilməsi haqqında" sərəncamlar imzalamışdır.

Prezident İlham Əliyev 2006-cı il 21 dekabr tarixində Ordubad şəhərində akademik Y.Məmmədəliyevin ev muzeyində Fəxri ziyarətçilər kitabında yazmışdır: "Mən çox şadam ki, mənim Sərəncamımla Azərbaycanın və dünyanın elm tarixində böyük rolu olan alimin elm və mənəvi irsinin öyrənilməsinə yeni təkan verilmişdir".

2006-cı ildə Parisdə YUNESKO-nun iqamətgahında görkəmli Azərbaycan alimi akademik Yusif Məmmədəliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilmişdir. Tədbirdə çıxış edərək Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva qeyd etmişdir: "Yusif Məmmədəliyevin 100 illik yubileyinin YUNESKO-nun təqviminə salınması onun elmi fəaliyyətinə verilən yüksək qiymətdir. Y.Məmmədəliyev sanki bir ömürdə bir neçə həyat yaşayıb. İlk növbədə, bu, istedadlı alimin tədqiqatçı həyatıdır. O, Azərbaycanda üzvi kimya məktəbinin əsasını qoyub. Onun adı neft elmi və neftə aid olan elmi sahələrlə sıx bağlıdır. Ölkəmizin ən böyük sərvətlərindən olan neft, sanki bu insana öz sirlərini açmağa qərar vermiş, onun tükənməz enerji mənbəyinə çevrilmişdir. Biz Yusif Məmmədəliyevin hər hansı tədqiqatına nəzər salsaq, orada belə bir sözə rast gələrik: ilk dəfə. Ona görə də təsadüfi deyil ki, bütün dünya



Y.Məmmədəliyevi sanballı tədqiqatçı və novator kimi tanıyır. Biz indi deyə bilərik ki, görkəmli Azərbaycan alimi YUNESKO-nun ideyalarına xidmət edib".

"Elmə həsr olunmuş ömür" adlı 1-ci videoçarxda akademik Y.Məmmədəliyevin həyatı, elmi fəaliyyəti, dünya neft-kimya sənayesinin tarixinə qızıl hərflərlə yazılan ixtiraları haqqında məlumat verilir.

İzləyicilərin diqqətinə çatdırılır ki, hələ 9-15 yaşlarında olarkən Yusif Şərqin böyük filosofları Sədi, Hafiz, Nizami Gəncəvi, Məhəmməd Füzuli, Firdovsi və Ömər Xəyyamın bir çox əsərlərini oxumuşdur. Məktəbi bitirdikdən sonra Y.Məmmədəliyev əvvəl Bakı Ali Pedaqoji İnstitutunda (hazırda Azərbaycan Dövlət Pedaqoji Universiteti) sonra isə təhsilini M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin kimya fakültəsində davam etmişdir.

O, 1943-cü ildə professor, 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının (hazırda AMEA) akademiki, 1958-ci ildən isə SSR-i Elmlər Akademiyasının müxbir üzvü olmuşdur.

Qeyd olunur ki, Y.Məmmədəliyev Azərbaycan neft-kimya sənayesinin əsasını qoymuşdur. Azərbaycan elminin böyük təşkilatçısı və cəfakeşi olmuşdur. Alim neftin və neft qazlarının katalitik emalı sahəsinə əvəzolunmaz töhfələr vermiş, Böyük Vətən müharibəsi illərində "Molotov kokteyli"ni və yüksək oktanlı benzini icad etmişdir.

Videoçarxda akademik Y.Məmmədəliyevin Azərbaycan SSR Elmlər Akademiyasının təsisçilərindən biri olduğu, 1947-1950 və 1958-1961-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti seçilməsi haqqında izləyicilərə məlumat verilir.

Dahi alim Yusuf Məmmədəliyev Azərbaycan elminin böyük təşkilatçısı olmuşdur. Onun təşəbbüsü ilə Elmlər Akademiyasının yeni binası inşa edilmiş (hazırda Akademiya Şəhərciyi), Şərqşünaslıq İnstitutu, Əlyazmalar Fondu, Şamaxı Rəsədxanası yaradılmışdır. Ədəbiyyatda nizamişünaslıq istiqaməti inkişaf etməyə başlamışdır. Alim "Kitabi-Dədə Qorqud" dastanının ölkəmizdə dərindən öyrənilməsi və Qobustan Qoruğunun yaradılması haqqında təşəbbüslər irəli sürmüşdür.

"Tarixə yazılan ömür" adlı 2-ci videoçarxda alim elmin yüksək təşkilatçısı kimi göstərilir. Bildirilir ki, Y.Məmmədəliyev Azərbaycanda müxtəlif elm sahələrinin inkişafına yorulmadan xidmət etmiş, onların dünya elm məkanına çıxmasına dəstək olmuş, alim və tələbələrə qayğı göstərmiş, Azərbaycan dilinə böyük önəm vermişdir.

Xalq şairi Bəxtiyar Vahabzadə "Gülüstan" poemasını yazdıqdan sonra çoxlu təzyiqlərlə rastlaşmasına baxmayaraq, Yusif Məmmədəliyev onu cəsarətlə müdafiə etmişdir.

Böyük alimimiz XX əsrin 30-cu illərində repressiyalara uğramış dövlət xadimlərinin övladlarını Elmlər Akademiyasında və Bakı Dövlət Universitetində işlə təmin etmişdir. O, Elmlər Akademiyasının vitse-prezidenti Heydər Hüseynovun müstəqillik haqqında düşüncələrini daima dəstəkləyirdi və onun yazdığı kitabı çapa tövsiyə etmişdir.

Videoçarxda alimin xatirəsinin əbədiləşdirilməsi və onun təltifləri də göstərilir. Qeyd edilir ki, görkəmli kimyaçı-alim müxtəlif illərdə "Lenin", "Qırmızı Əmək bayrağı", "Şərəf nişanı" ordenlərinə, "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illər Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medallarına, Stalin mükafatına və Azərbaycan SSR Əməkdar elm xadimi adına layiq görülmüşdür.

Birinci videoçarx böyük alim Yusif Məmmədəliyevin ən çox sevdiyi dünya şöhrətli Xalq artisti Bülbülün və tanınmış opera müğənnisi Azər Rzazadənin ifalarında Asəf Zeynallının "Ölkəm" mahnısı ilə, ikinci videoçarx isə dahi bəstəkar, Xalq artisti Üzeyir Hacıbəylinin "Koroğlu" operasının uvertürası və Müslüm Maqomayevin "Şah İsmayıl" operasından bir parça ilə müşayiət olunur.

✍ **Zəhra Cəbiyeva,**
*Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin İnformasiya texnologiyaları üzrə mütəxəssisi*